

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblələhımdır*

# ŞƏRQ *qapısı*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 144 (21.045)

*1 avqust 2014-cü il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 25 aprel tarixli 22-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 25 aprel tarixli 22-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 9.9-cu bənddə birinci halda "bu sahələrdə" sözlərindən sonra "(xarici qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları da daxil olmaqla)" sözləri əlavə edilsin.

2. 9.13-cü bənddə "xarici qeyri-hökumət təşkilatlarının nümayəndəliklərinin" sözləri "xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin" sözləri ilə əvəz edilsin və "nizamnamələrinə" sözündən sonra "(əsasnamələrinə)" sözü əlavə edilsin.

3. 9.14-cü bənddə "qeyri-kommersiya hüquqi şəxslər" sözləri "dini qurumlar istisna olmaqla, digər qeyri-kommersiya qurumları və fiziki şəxslər" sözləri ilə əvəz edilsin.

4. 9.32-1-ci bəndində "qeyri-hökumət təşkilatlarına" sözlərindən sonra "və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə" sözləri əlavə edilsin.

5. 10.8-ci bəndə "qeyri-hökumət təşkilatlarına" sözlərindən sonra "və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə" sözləri, "nizamnamə" sözündən sonra "(əsasnamə)" sözü əlavə edilsin.

6. 10.9-cu bənddə ", qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin ləğv edilməsi" sözləri "ləğv edilməsi, qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin dayandırılması, bərpa edilməsi və onların ləğv edilməsi" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 iyul 2014-cü il*

*1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

## Dil xalqın milli sərvətidir

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd olunur.***

Azərbaycan dili dünyanın qədim və zəngin tarixə malik dillərindən biridir. Minillərin sərt sınaqlarından keçən Azərbaycan dili xalqımızın ən böyük milli dəyəri, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, müstəqilliyimizin başlıca rəmzlərindən biridir. Dilimiz öz ifadə imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik strukturunun sabitliyi ilə seçilir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə arealına malik, yüksək yazı və nitq mədəniyyəti olan və daim zənginləşən dildir.

Əsrlər boyu analarımız həzin laylalarını bu dildə söyləmiş, nənələrimiz bizə bu dildə şirin nağıllar danışmışlar. Bu dildə zəngin xalq yaradıcılığı nümunələri – dastanlar, nağıllar, bayatılar, rəvayətlər, əfsanələr, atalar sözləri, mahnılar yaranmış, minillərin dil çeşməsində durularaq və sınaqlardan keçərək XXI əsrə gəlib çıxmışdır. Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Məmməd Araz və başqa görkəmli söz ustaları bu dildə ölməz sənət nümunələri yaratmışlar.

Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, qorunması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan dilini milli varlığın əsas hissəsi kimi həmişə diqqət mərkəzində saxlamışdır. Hələ sovet dövründə imperiya təzyiqlərinə baxmayaraq, ulu öndər böyük cəsarət göstərərək 1978-ci ildə Azərbaycan dilini Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Həmin dövrdə Azərbaycan dilinin qrammatik quruluşunun elmi şəkildə öyrənilməsinə başlanılmış, dilçi alimlərin fəaliyyəti üçün geniş imkanlar açılmış, elmi-tədqiqat materialları və kitablar nəşr olunmuşdur. Azərbaycan dilinə və ümumiyyətlə, Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı ölkəmizin keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, ötən əsrdə SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə "Türkologiya" jurnalı məhz Bakıda nəşr edilirdi. Azərbaycan dilinə böyük məhəbbət və diqqətlə yanaşan dahi şəxsiyyət deyirdi: ***"...Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz... Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı, olmayacaqdır".***

Ümummilli lider müstəqillik dövründə də dövlət dil siyasətini daim ön planda saxlamışdır. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapmışdır. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı, eləcə də 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədləridir. Belə ki, ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə ölkəmizdə kiril əlifbasından istifadəyə son qoyulmuş, latın qrafikasının tətbiqi ilə bağlı bir sıra işlər həyata keçirilmişdir.

Dövlət quruculuğunda dil məsələsinə dönə-dönə qayıdan ümummilli lider Heydər Əliyev deyirdi: ***"Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi də bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də Azərbaycançılıq məsələsidir".***

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət dil siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli, "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 2007-ci il 24 avqust tarixli sərəncamları və başqa dövlət sənədləri ölkəmizdə bu işlərin davamlı və ardıcıl aparılmasının göstəricisidir. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyətinin, terminologiyanın inkişafı, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuraların yaradılması qərara alınmışdır.

Bu gün muxtar respublikamızda dövlətimizin dil siyasəti uğurla həyata keçirilir. Azərbaycanda latın qrafikasına keçiddən sonra muxtar respublikanın kitabxanalarına 2 milyon nüsxədən çox kitab hədiyyə edilmişdir. Naxçıvan şəhərində "Ana dili" abidəsinin ucaldılması da Ana dilimizə ehtiramın ifadəsidir. Son illər muxtar respublikamızda dilimizin saflığı və qorunması üçün həyata keçirilən tədbirlər də geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

Bu gün dövlət dilimiz beynəlxalq tədbirlərdən, teatr səhnələrindən, konsert salonlarından, elmi müəssisələrdən, idman saraylarından, ordu hissələrindən əzəmətlə, məğrur səslə eşidilməkdədir. Bu gün həm də Azərbaycan dilində dünya elm və sənət xəzinəsinin ən qiymətli əsərlərini oxumaq mümkündür. Azərbaycan xalqı Aristoteli, Homeri, Firdovsini, Şekspiri, Puşkini, Tolstoyu, Höteni, Servantesi öz ana dilində mütaliə edir. Bütün bunlar həm də onu göstərir ki, doğma dilimiz dünya xalqlarının yaratdığı zəngin əsərləri aydın və hərtərəfli ifadə etmək zənginliyi və qüdrətinə malikdir. Başqa sözlə, bu gün Azərbaycan cəmiyyətində yaşayan hər kəs ana dilimizdən istifadə edir. Ona görə də hamımızdan Azərbaycan dilinə münasibətdə, dilimizin saflığının qorunmasında vətəndaşlıq mövqeyi tələb olunur. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımızın ulu babalardan miras qalan bu ən qiymətli milli sərvətini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

***Cəmiyyətin ən böyük sərvəti insanların sağlamlığıdır. Yalnız sağlam olanlar cəmiyyətə xeyir verə, dövlətin və xalqın xeyrinə qurub-yaratmaq imkanlarından tam istifadə edə bilərlər. Odur ki, Naxçıvan Muxtar Respublikasında insanların sağlamlığının qorunmasına, səhiyyənin inkişafına daim diqqət göstərilir. Səhiyyə sistemində aparılan islahatlar tibb ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, xidmətin keyfiyyətcə yaxşılaşmasına zəmin yaradıb.***

## Səhiyyə ocağının inşası davam etdirilir



Son 19 il ərzində regionda 200-dən çox səhiyyə müəssisəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq sakinlərin istifadəsinə verilib. Muxtar respublikanın ən böyük tibb ocağı olan Naxçıvan Muxtar Respublika Xəstəxanası binasının yenidən qurulması səhiyyə quruculuğu istiqamətində atılan növbəti addımlardandır.

2012-ci ilin avqust ayından başlayaraq "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yenidən qurulan binada ilkin mərhələdə binanın təməl hissəsinin daha da möhkəmləndirilməsi məqsədilə ətraf xüsusi beton örtüyü ilə əhatələnib, zirzəmidə üçmərhələli izolyasiya işləri aparılıb. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binada tikinti işləri yekunlaşıb, dam örtüyünün vurulmasına başlanılıb. Hazırda daxildə suvaq işləri aparılır, döşəmə vurulur, I, II, III mərtəbələrdə isə tavan qurulur. Binada yerləşən 109 palatanın hər birinə məxsus hamam kompleksində fayans işləri davam etdirilir, su və elektrik xətlərinin çəkilişi isə başa çatdırılıb.

Qeyd edək ki, 8 mərtəbədən ibarət olan xəstəxana binasının 4 korpusunun hər birində yük və sərnişin liftləri olmaqla, 10 lift quraşdırılacaq. Binanın giriş hissəsinin oval şəbəkəbənd formasında olması bu səhiyyə ocağına gələnlərə asanlıqla bir korpusdan digərinə keçmək imkanı yaradacaq. Binanın fasad hissəsi klassik və müasir memarlıq elementləri ilə zənginləşdiriləcək. Fasadda üzlük daş, poliestr və digər yerli inşaat materiallarından istifadə olunacaq. İnteryerdə aparılan dizayn işləri zamanı avanqard metodlardan istifadə ediləcək. Yeni layihəyə əsasən, binanın zirzəmi hissəsində masaj salonu, SPA mərkəzi, hovuz, duş kabinələri, morq, həkim və tibb bacıları üçün otaqlar və xidməti yerlər yaradılacaq. Birinci mərtəbə stomatoloji kabinələr, təcili yardım, palatalar, fizioterapiya, ot vannası və Naftalan nefti ilə müalicə kabinələri, rentgen, əməliyyat otaqları üçün nəzərdə tutulub. Qalan mərtəbələr isə xəstəxananın şöbə və bölmələri, həkim və tibb bacıları, palatalar və digər müayinə və müalicə otaqları, laboratoriyalar, istirahət guşələri üçün ayrılıb. Binanın sonuncu mərtəbəsində geniş akt zalı, tibb təhsili alan tələbələr üçün siniflər və kafe yerləşəcək.

Bütün bunlarla bərabər, xəstəxana binasından 45-50 metr kənarda yeni köməkçi bina da tikiləcək ki, hazırda burada beton-qəlib işləri görülür. İki mərtəbədən ibarət olacaq binada qazanxana, camaşırxana, elektrik və təsərrüfat otaqları, bufet və sair yerləşəcək.

Ümumiyyətlə, müasir layihə əsasında yenidən qurulan xəstəxana binası istifadəyə verildikdən sonra nəinki muxtar respublikanın, hətta bütün regionun ən nəhəng səhiyyə ocaqlarından biri olacaq.

Qeyd edək ki, xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılacaq. Dövlət başçısının 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 9 milyon manat vəsait ayrılıb.

**Xəbərlər şöbəsi**

# Yaşayış səviyyəsinin yüksəlməsi insanların istirahətinin səmərəli təşkilinə ictimai tələbatı artırıb

## *Bu məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasında görülən genişmiqyaslı işlər də bu zərurətdən irəli gəlir*

***Naxçıvan Muxtar Respublikası özünün möhtəşəm inkişaf və tərəqqi mərhələsini yaşayır. Gündən-günə gözəlləşən, çiçəklənən, Cənubi Qafqaz regionunun mədəniyyət aləmində layiqli yer tutan Naxçıvanın özünəməxsus yüksək mədəni aurasının yaranması hər birimizdə qürur hissləri yaradır, hədsiz sevincə səbəb olur.***




Ölkəmizdə, o cümlədən muxtar respublikada hər il insanların rifah halı bir öncəki ilə görə daha da yüksəlir, onların məişət şəraitləri yaxşılaşır. Bununla birlikdə müstəqilliyimizin ilk illərində mövcud olan bir sıra sosial problemlərin həllinə, sosial-iqtisadi inkişafa paralel olaraq insanların istirahətlərinin səmərəli təşkilinə ictimai tələbat da artıb. Onu da deyək ki, bu kimi sosial-mədəni ehtiyaclar dünyanın yalnız inkişaf etmiş ölkələrində nəzərə çarpır. Həmin ölkələrdə bu tələbatı təmin etmək üçün yeni istirahət mərkəzləri yaradılıb və bu gün proses davam edir. Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, bu məsələdə də kompleks tədbirlər həyata keçirilir, müasir dövrün tələblərinə cavab verən əhəmiyyətli obyektlər tikilərək əhalinin istifadəsinə verilir.

Bu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər bütün sahələrdə inkişafın təmin olunmasına imkan verir. Dövlət-xalq və xalq-dövlət birliyinin nəticəsi olaraq, ölkəmizdə qəbul olunan dövlət proqramları uğurla icra olunur, insanların yaşayış şəraiti yaxşılaşdırılır, onların firavan həyatı təmin edilir. Əhalinin rifahının yaxşılaşdırılması isə insanların istirahətinin səmərəli təşkilinə tələbatı artırır. Bunun üçün də ölkəmizdə, eləcə də muxtar respublikamızda yeni istirahət mərkəzlərinin yaradılması zərurətə çevrilir”.***

Məhz bu baxımdan iyul ayı Naxçıvan Muxtar Respublikasının əhalisi üçün daha əlamətdar oldu, keçən ay bir-birindən gözəl iki mühüm məkan əhalinin istifadəsinə verildi. İyulun 7-də Uzunoba Su Anbarında yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyi, iyulun 24-də isə Naxçıvan şəhərində gözəlliyi ilə gözoxşayan Əyləncə və İstirahət Mərkəzi istifadəyə verildi. Hər iki məkanda əhalinin istirahəti üçün yüksək səviyyədə şərait yaradılıb. Belə ki, Naxçıvan şəhər çimərliyi ərazisində kompleks tikinti işləri görülüb, Uzunoba Su Anbarı əsaslı şəkildə yenidən qurulub. Çimərliyin qumlu sahil xəttinin uzunluğu 280 metrdir. Böyüklər və uşaqlar üçün nəzərdə tutulan çimərlik iki hissədən ibarətdir. Böyüklərin istirahəti üçün ayrılan sahənin su hissəsinin dərinliyi 4 metrdir. Suyun üzərində çimərlik sərhədinin qurtardığını bildirən qadağanedici nişanlar qoyulub.

Mövcud bütün imkanlardan maksimum dərəcədə istifadə edilərək yaradılan çimərliyin ərazisində insanların istirahəti üçün hər cür şərait var. Burada günlüklər, paltardəyişmə yerləri, duş kabinələri, futbol və voleybol meydançaları, eləcə də avtomobil dayanacağı yaradılıb, ictimai-iaşə xidməti təşkil olunub. Çimərliyə xidmət edən inzibati binada iş otağı, kafe, mətbəx, anbar və mağaza yerləşir. Su anbarının üzərində hər biri 20 kvadratmetr olan 3 istirahət köşkü və 15 metr uzunluğunda platforma quraşdırılıb. Burada su idman növləri ilə məşğul olmaq üçün də lazımi şərait yaradılıb, su velosipedləri və motosikletləri əhalinin ixtiyarına verilib.



Gözlənilməz bədbəxt hadisələrin qarşısını almaq üçün çimərlikdə təhlükəsizlik tədbirləri də diqqətdə saxlanılıb. Burada müşahidə qülləsi yaradılıb, xəbərdaredici və məlumatlandırıcı lövhələr vurulub. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin xilasedici qrupu hazırda ərazidə xidmət göstərir.

Ərazidə aparılan abadlıq işləri nəticəsində hər tərəf göz oxşayır. Elektriklə təminatın daha da yaxşılaşdırılması məqsədilə 160 kilovolt-amper gücündə transformator yarımstansiyası və 38 ədəd işıqlandırma dirəyi quraşdırılıb. Maşınların rahat hərəkəti üçün magistral yoldan çimərliyə qədər 2,2 kilometrlik yola asfalt örtük salınıb, 210 metr istinad divarı tikilib. Çimərliyə gedənlərin rahatlığını təmin etmək üçün marşrut xətti açılıb.



Bütün bunlar Naxçıvan Muxtar Respublikasının əhalisinin mənalı, rahat istirahəti üçün yaradılıb. Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ölkəmizdə həyata keçirilən siyasətin əsas qayəsi insanların yaşayış şəraitinin daha da yaxşılaşdırılmasıdır. İyulun 7-də Uzunoba Su Anbarında yeni istirahət mərkəzi – Naxçıvan şəhər çimərliyinin açılış mərasimində çıxış edən Ali Məclisin Sədri cənab Vasif Talıbov qədim diyarda insan amilinə xüsusi diqqət yetirildiyini bildirərək deyib: ***“Muxtar respublikada insanların yaşayış şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Tikinti materiallarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, avtomobillərin kredit yolu ilə satışının təşkil edilməsi insanların mənzil və avtomobil təminatına hərtərəfli şərait yaratmışdır. Son illər Naxçıvan şəhərinin ətrafında yaradılan istirahət mərkəzləri isə sakinlərin və gələn qonaqların asudə vaxtlarının səmərəli təşkilinə imkan verir. Bu gün istifadəyə verilən yeni çimərlik də yay istirahət zonası kimi şəhər sakinlərinin və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə, onların sağlamlıqlarının qorunmasına xidmət edəcəkdir”.***




Muxtar respublikada əhalinin böyük sevincinə səbəb olan ikinci möhtəşəm istirahət məkanı olan Əyləncə və İstirahət Mərkəzi qeyd etdiyimiz kimi Ramazan bayramı ərəfəsində – iyulun 24-də istifadəyə verildi. Onu da qeyd edək ki, yeni əyləncə mərkəzi “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”a əsasən, Naxçıvançay vadisində insanların istirahətinin səmərəli təşkili məqsədilə yaradılıb.

Tikintisinə 2013-cü ildən başlanılan mərkəzdə istirahət edənlərə 195 nəfərlik işçi heyət xidmət göstərir. Burada ikimərtəbəli bina inşa edilib. Binanın birinci mərtəbəsində geyim mağazası, 2 kafe və sahəsi 1230 kvadratmetr olan örtülü oyun salonu vardır. Geyim mağazasında dünyanın məşhur geyim brendləri olan 14 firmanın məhsulları alıcılara təklif olunur. Kişi, qadın və uşaq bölmələrindən ibarət olan mağazada müştərilərə hərtərəfli xidmət göstərilir. Oyun salonunda 25 aparat quraşdırılıb, uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün lazımi şərait yaradılıb.




Binanın ikinci mərtəbəsindəki mebel dəstlərinin satış bölməsində xarici ölkə və yerli istehsal məhsullarının satışı həyata keçirilir. Çeşid bolluğu alıcıların arzularına və istəklərinə uyğun səmərəli seçim etməyə imkan verir. Yüksək keyfiyyəti ilə seçilən bu məhsullar beynəlxalq standartlara tam uyğundur. Burada mebel dəstlərini 9 aylıq faizsiz kreditlə almaq mümkündür. Binada həmçinin lift sistemi quraşdırılıb, iş otaqları istifadəyə verilib.

Əyləncə və İstirahət Mərkəzinin həyətində 33 metr hündürlüyündə 24 kabinəli 144 yerlik karusel, 8 yerlik 120 dərəcəli yelləncək, 32 yerlik uşaq qatarı və uşaqlar üçün nəzərdə tutulmuş 4 idman qurğusu vardır. Mərkəzin həyətində böyüklərin istirahəti üçün 1 kafe fəaliyyət göstərir. Həmçinin burada 1 fəvvarə və 4 hovuz da istifadəyə verilib, kukla teatrının tamaşalarının göstərilməsi üçün səhnə yaradılıb.

Uşaqların qayğı ilə əhatə olunması, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşdırılması muxtar respublikada həyata keçirilən dövlət uşaq siyasətinin başlıca istiqamətlərindəndir. Son illər muxtar respublikada istifadəyə verilən müasir uşaq bağçaları, uşaq-əyləncə mərkəzləri də bu baxımdan mühüm əhəmiyyət daşıyır. Yeni Əyləncə və İstirahət Mərkəzində yaradılan şərait də uşaqların istirahətinin səmərəli təşkili ilə yanaşı, onların psixoloji hazırlıq səviyyələrinin yüksəldilməsi və əqli inkişafı baxımından da əhəmiyyətlidir.

Əslində, Naxçıvanda gözəl uşaq istirahət mərkəzi var idi. Amma əhalinin sayının gündən-günə artmasına paralel olaraq tələbatın da artması yeni istirahət mərkəzinin qurulmasını zərurətə çevirdi. Əyləncə və İstirahət Mərkəzinin açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında bu məsələyə toxunaraq deyib: ***“Naxçıvan şəhərində bir uşaq istirahət mərkəzinin fəaliyyət göstərməsi şəhər sakinlərinin tələbatını tam ödəmirdi. Ona görə də muxtar respublikanın paytaxtında yeni Əyləncə və İstirahət Mərkəzinin yaradılmasına ehtiyac yarandı. Bu gün istifadəyə verilən Əyləncə və İstirahət Mərkəzinin yerləşdiyi ərazi vaxtilə müxtəlif məqsədlər üçün istifadə edilmiş və sonradan yararsız vəziyyətə düşmüşdü. Lakin yaradılan şərait və çəkilən zəhmət nəticəsində ərazi bu gün Naxçıvan şəhərinin ən abad yerlərindən birinə çevrilmişdir. Əyləncə və İstirahət Mərkəzində müasir avadanlıqlar qurulmuş, təhlükəsizlik təmin edilmişdir. Bu da uşaqların və böyüklərin istirahətlərinin, eləcə də asudə vaxtlarının səmərəli keçirilməsinə imkan verəcəkdir”.***

Onu da deyək ki, Əyləncə və İstirahət Mərkəzi muxtar respublikada bir sıra uğurlu layihələrə imza atan “Cahan Holdinq” Şirkətlər İttifaqı tərəfindən inşa edilib. Bu gün “Cahan Holdinq” muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət qayğısından bəhrələnərək öz fəaliyyətini genişləndirir. Şirkətlər ittifaqının inşa etdiyi bu mərkəz dövlət tərəfindən verilən güzəştli kredit və sahibkarın şəxsi vəsaiti hesabına yaradılıb və muxtar respublikada insanların rahatlığının təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Əyləncə və İstirahət Mərkəzində yüzlərlə insan işlə təmin olunub, onların fəaliyyəti üçün lazımi şərait yaradılıb. Bu, dövlətimizin yeni iş yerlərinin açılması istiqamətində həyata keçirdiyi siyasətin uğurlu nəticələrindəndir.

***Şairlər bəzən parkları, istirahət mərkəzlərini şəhərlərin təbəssümünə bənzədirlər. Gözəl bənzətmədir. Çünki məhz şəhərin həmin məkanlarında insanlar rahat istirahət edir, dincəlir, onların əhval-ruhiyyəsi daha da yaxşılaşır. Ona görə də muxtar respublikada infrastrukturun inkişafı ilə yanaşı, insanların sağlamlıqlarının qorunması və istirahətinin səmərəli təşkili də diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhər çimərliyinin və Əyləncə və İstirahət Mərkəzinin əhalinin istifadəsinə verilməsi də bu sahədə həyata keçirilən tədbirlərin davamı olmaqla yanaşı, həm də ölkəmizdə, o cümlədən muxtar respublikada insan amilinə verilən yüksək qiymətin növbəti təzahürüdür.***

**Rauf ƏLİYEV**

# Avtomobillərin texniki müayinədən keçirilməsi mühüm əhəmiyyət daşıyır

***Muxtar respublikada avtomobillərin sayı ildən-ilə artmaqdadır. Təbii ki, avtomobillərin sayının artması yollardakı hərəkətin intensivliyinə də öz təsirini göstərir. Yol infrastrukturunun tamamilə yenidən qurulması, magistral yollarda sürətölçən radar sisteminin və nəzarət-izləmə kameralarının quraşdırılması, Dövlət Yol Polisi İdarəsi əməkdaşlarının nəqliyyat və müasir texniki avadanlıqlarla təmin olunması hərəkətin təhlükəsizliyinə və yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına xidmət edir. Həmçinin son illər müasir avadanlıqlarla təmin olunmuş avtomobillərin müayinə mərkəzinin istifadəyə verilməsi avtomobillərin yüksək səviyyədə texniki müayinədən keçirilməsinə əlverişli şərait yaratmışdır. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir.***

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsinin müayinə mərkəzinin baş inspektoru, polis polkovnik-leytenantı Faiq Məmmədov bizimlə söhbətində qeyd etdi ki, muxtar respublikamızda yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, avtomobillərin rahat və təhlükəsiz hərəkətinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Əvvəllər muxtar respublikada bir müayinə mərkəzi fəaliyyət göstərirdi. Lakin avtomobillərin sayının artması yeni müayinə mərkəzlərinin yaradılmasını zəruri etmişdir. Şərur Rayonlararası Müayinə Mərkəzinin istifadəyə verilməsi sakinlərin rahatlığının təmin olunmasına, onların büdcələrinə və vaxtlarına qənaət etmələrinə imkan verir. Artıq bu ərazidə yaşayan insanlar Naxçıvan şəhərinə gəlmədən müayinə mərkəzində öz nəqliyyat vasitələrini texniki baxışdan və sığorta qeydiyyatından keçirə bilirlər.

Avtomobillərin texniki baxış və sığorta qeydiyyatının vaxtlı-vaxtında aparılması, vətəndaşlara yüksək səviyyədə xidmət göstərilməsi üçün mərkəzdə hər cür şərait yaradılmışdır. İkimərtəbəli binanın ümumi sahəsi 312 kvadratmetrdir. Müayinə mərkəzinin birinci mərtəbəsində avtomobillərin texniki baxışa hazırlığı, texniki baxışın keçirilməsi, qeydiyyat aparılması üçün zal, ikinci mərtəbədə isə bufet və iş otağı yerləşir.

Müayinə mərkəzində nəqliyyat vasitələrinin dövlət texniki baxışı və baxışlararası müddətdə texniki vəziyyətinin yoxlanılması üçün hərtərəfli şərait mövcuddur. Binada 1 ədəd kompüter, 3 ədəd monitor, minik və yük avtomobillərinin əyləc sisteminin, mühərrikdən çıxan qazların, sükanın idarəetmə qollarının yoxlanılması, işıqların tənzimlənməsi, şinlərin protektor naxışlarının ölçülməsi üçün Türkiyə, İtaliya və Cənubi Koreya istehsalı olan avadanlıqlar quraşdırılmışdır.

Texniki baxış zonasında bütün zəruri mühəndis-kommunikasiya sistemləri quraşdırılmışdır. Baxış zonasında 5 duracaq vardır. Nəqliyyat vasitələri həmin duracaqlarda yoxlanılır, texniki vəziyyət barədə göstəricilər birbaşa mərkəzi kompütera ötürülür.

Müsahibim onu da qeyd etdi ki, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən, kütləsi 3,5 tondan yuxarı olan yük avtomobilləri, avtobuslar, təhlükəli yüklərin daşınması üçün xüsusitəyinatlı nəqliyyat vasitələri ildə bir dəfə, kütləsi 3,5 tondan aşağı olan yük və minik avtomobilləri istehsal olunduğu tarixdən 4 il keçdikdə iki ildə bir dəfə, istehsal olunduqları vaxtdan 10 il keçdikdə isə ildə bir dəfə texniki baxışa təqdim olunmalıdır. Qanunvericiliyə uyğun olaraq, respublika ərazisində daimi və ya müvəqqəti qeydiyyatda olan nəqliyyat vasitələrinə və qoşqulara dövlət texniki baxışı ildə bir dəfə – yanvar ayının 1-dən oktyabr ayının 31-dək olan müddətdə həyata keçirilir. Məlumat üçün qeyd edək ki, "VAZ", "QAZ", "ZAZ", "UAZ" markalı və digər MDB istehsalı olan avtomobillər üçün yanvar ayının 1-dən may ayının 1-dək, xarici ölkələrdə və onların baza modelləri əsasında MDB ölkələrində istehsal olunan minik avtomobilləri üçün may ayının 1-dən avqust ayının 1-dək, yük avtomobilləri və avtobuslar üçün avqustun 1-dən oktyabrın 31-dək texniki baxış keçirilməsi müddəti müəyyənləşdirilmişdir.

Nəqliyyat vasitələrinin sahibləri, sərəncam vermək hüququ olan səlahiyyətli şəxslər onlara məxsus nəqliyyat vasitələrini qanunvericilikdə nəzərdə tutulmuş vaxtdan gec olmayaraq dövlət texniki baxışına saz vəziyyətdə təqdim etməlidirlər. Nəqliyyat vasitələrinə dövlət texniki baxışı nəqliyyat vasitələrinin sahibi və ya sərəncam vermək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini idarə etməyə hüquq verən sənəd (sürücülük vəsiqəsi), nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi, fiziki şəxslər Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş yol vergisinin və dövlət rüsumunun ödənilməsi ilə bağlı sənədlər, nəqliyyat vasitəsinin sahibinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsi, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bağlanması faktını təsdiq edən sığorta şəhadətnaməsi təqdim edildikdən sonra həyata keçirilir.

Nəqliyyat vasitəsi müayinə mərkəzinə daxil olarkən qabaq, orta və arxa oxlardakı təkərlərdə əyləc qüvvəsinin qeyri-bərabər paylanması əmsalı, ümumi əyləc qüvvəsi, dayanacaq əyləcinin effektivliyi, işlənmiş qazların tərkibində zərərli maddələrin normadan artıq olması (CO), xarici işıq cihazlarının standarta uyğunluğu və işığın düzgün paylanması, sükan idarəsi hissəsinin mexaniki zədələnməsi və ya etibarsız birləşdirilməsi, şinlərin naxışlarının normadan artıq yeyilməsi xüsusi avadanlıqlar vasitəsilə ölçülür. Bununla yanaşı, ötürücü valın etibarlı bərkidilməsi, sürətölçənin işləməsi, arxa görünüş güzgüsü, təhlükəsizlik kəməri, palçıqdanqoruyan rezinin, qəzadayanma nişanın, yanğınsöndürən və dərman qutusunun olub-olmaması yoxlanılır.

Muxtar respublikamızda daimi qeydiyyatda olan hüquqi və fiziki şəxslərə məxsus nəqliyyat vasitələrinin qanunvericiliyə uyğun olaraq texniki baxışdan keçirilməsi diqqət mərkəzində saxlanılmış, 2014-cü ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsinin müayinə mərkəzində və Şərur Rayonlararası Müayinə Mərkəzində hüquqi və fiziki şəxslərə məxsus 28 min 370 nəqliyyat vasitəsindən 6984 nəqliyyat vasitəsi, 28 ədəd qoşqu və 10 ədəd motosiklet texniki baxışdan keçirilmişdir. Hazırda bu istiqamətdə işlər davam etdirilir.



Son illər muxtar respublikamızda digər sahələrdə olduğu kimi, yol infrastrukturunun yeniləşməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilmiş, avtomobillərin maneəsiz hərəkətinə əlverişli şərait yaradılmışdır.

*Avtomobil yollarının keçdiyi ərazinin şəraitinə uyğun sürət həddi qoyulmuş, işıqforlar quraşdırılmış, piyada keçidləri müəyyənləşdirilmişdir. Yaddan çıxarmaq olmaz ki, avtomobillərin texniki müayinədən vaxtında keçirilməməsi, sürət həddini aşma, sürücülərin diqqətsizliyi və piyadaların keçidlərdən düzgün istifadə etməməsi avtomobil yollarında qəza halları yaradır, bəzən də ağır yol-nəqliyyat hadisəsi baş verir. Bu da insanların sağlamlığına xəsarət yetirir və ya həyatına son qoyur. Gəlin özümüzü qorumaq və başqalarının həyatına təhlükə yaratmamaq üçün avtomobilləri daim saz vəziyyətdə saxlamaqla yol hərəkəti qaydalarına ciddi əməl edək!*

*İstehsal müəssisələri*

# "Naxçıvan Duz İstehsalı" MMC ixrac potensialını genişləndirir

***Muxtar respublika iqtisadiyyatı inkişafına görə yeni keyfiyyət mərhələsindədir. Yeni mərhələnin əsas hədəfi iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olmaqla muxtar respublikanın dinamik sosial-iqtisadi inkişafının davamlılığını təmin etməkdən ibarətdir. Bu hədəfin reallaşması istiqamətində icrasıvacib vəzifələr müəyyənləşdirilmişdir. Artıq regionda hədəflənən məqsədlərə nail olunmaqdadır.***







Belə ki, son illər muxtar respublikamızda irimiqyaslı layihələr reallaşdırılır, yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəliftəyinatlı yeni istehsal müəssisələri yaradılır. Həmçinin fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilir, mütərəqqi texnologiyalar tətbiq olunur. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikamızda müxtəlif növdə ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın çox hissəsi yerli istehsal hesabına ödənilir.

Daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri də "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Yeraltı və yerüstü sərvətilə zəngin Naxçıvanın təbii resurslarından biri olan Duzdağ yataqları Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Məlumat üçün qeyd edək ki, Naxçıvan Duzdağında əsaslı tədqiqat işləri aparılmış və bu araşdırmaların nəticələri "Naxçıvan Duzdağının qədim duz mədənləri" kitabında ətraflı şəkildə öz əksini tapmışdır. Kitabda Duzdağ mədəninin qədimliyi, bu mədənlərdən e.ə. III-II minilliklərdə başlayaraq duz çıxarıldığı, mədənçiliyin inkişaf etdirildiyi bildirilir. Tədqiqatlar nəticəsində Duzdağ mədəninin Erkən Tunc dövründə geniş istifadə olunduğu müəyyən edilmiş, duzun sosial və ictimai münasibətlər faktoruna çevrilərək sənətkarlığın və ticarətin, bununla birlikdə isə Naxçıvan şəhər mədəniyyətinin yaranmasına güclü təsir göstərdiyi aşkarlanmışdır.

Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılmış, sovetlər dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilmişdir. Lakin 1988-1993-cü illərdə bu sənaye müəssisəsinin də fəaliyyəti tamamilə dayanmışdır.

1993-cü ildən sonra Azərbaycanda yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaratmışdır. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılmış, istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilməklə müəssisə yenidən qurularaq istifadəyə verilmişdir. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı sahəsi tikilərək istehsala başlanmışdır. Burada bütün istehsal prosesi avtomatlaşdırılmış, paketləyici avadanlıq quraşdırılmışdır. Bu da hazır məhsulu 200, 250 və 500 qramlıq taralarda qablaşdırmağa imkan verir.

2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq alınıb quraşdırılmışdır. Əl əməyi yüngülləşdirilmiş, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, istehsal edilən məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılması da təmin edilmişdir.

İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullar məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm nəfis tərtibatla bəzədilmiş 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır.

80 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal sahələrinə gətirilir. Daşduz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülüb hər ton duzun tərkibinə 85 qram yod əlavə edilməklə elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra paketlənir. İstehsal olunan məhsulun taraları üzərində yod çatışmazlığının fəsadları ilə əlaqədar məlumat, duzun tərkibi, istehsal tarixi və yararlılıq müddəti göstərilir.

Daxili bazarı keyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv cari ilin ilk 6 ayında 3219,7 ton daşduz və 1615,4 ton üyüdülmüş duz istehsal etmişdir. Müəssisə tərəfindən 1392,2 ton daşduz və 1221,7 ton üyüdülmüş duz satılmışdır ki, bu da əvvəlki illə müqayisədə çoxdur. Keyfiyyət göstəriciləri ilə seçilən Naxçıvan duzunun ölkəmizin digər regionlarında da satışını təmin etmək məqsədilə Bərdə şəhərində baza yaradılmışdır. Müəssisənin balansındakı yük maşınları ilə duz bazaya daşınır, oradan da sifarişə uyğun ətraf rayonlarda fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Ümumilikdə, müəssisədə istehsal olunan daşduzun 88 faizi, narın duzun isə 58 faizi Bakı şəhərində və ölkəmizin digər regionlarında satışa çıxarılmışdır.

Səhifəni hazırladı: Kərəm HƏSƏNOV

# Sosial reklam və korporativ məsuliyyət

***Cəmiyyətin dayanıqlı inkişafı həyata keçirilən sosial siyasətin dərinliyindən çox asılıdır. Hər bir fərd cəmiyyət üzvü kimi öz sosial statusundan asılı olmayaraq, bu siyasətə çox həssasdır. Sosial siyasətin uğurla həyata keçirilməsi ilə uzunmüddətli hərtərəfli inkişafa zəmin yaradılır. Sosial siyasət isə təkcə dövlətin vəzifəsi olmayıb, əmək kollektivlərinin, onların üzvlərinin və cəmiyyətin digər qruplarının maraqlarının kəsişdiyi hər yerdə, hər bir müəssisədə, təşkilatda və özəl sektorda mütəmadi olaraq həyata keçirilən tədbirlərlə gündəmdə saxlanılır. Sosial reklam və korporativ məsuliyyət adı altında həyata keçirilən tədbirlər isə müasir dövrdə müxtəlif müəssisələrin, xüsusən özəl bölməyə aid olan iri şirkətlərin apardığı sosial məzmunlu tədbirlər arasında mühüm yer tutur.***

Sosial reklam nədir və o, korporativ sosial məsuliyyət anlayışında hansı yeri tutur? İlk olaraq qeyd edək ki, bu, cəmiyyət inkişaf etdikcə hər bir müəssisə və təşkilatın, firmanın aid odığu ölkənin, regionun bütün əhalisi, onun bütün sosial qrupları ilə sanki birgə nəfəs alaraq onların maraqlarını başa düşməsi, onlardan gözlənilənlərə haqqında danışdığımız belə tədbirlərlə vaxtında cavab verməsidir. Qeyd edək ki, bu, çox mühüm məsələdir və qloballaşmaya doğru gedən yolda cəmiyyətin sosial-mədəni inkişaf səviyyəsi yüksəlib informasiya mübadiləsi sürətləndikcə daha geniş xarakter alır. Odur ki, inkişaf edən Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri arasında dövlət sektoru ilə yanaşı, özəl sektorun da insan inkişafına verdiyi töhfə, onların cəmiyyətin humanitar imperativlərinə verdiyi reaksiyalar çox əhəmiyyətlidir. Bu sahədə irəlidüşüncəli addımların təqdir edilərək mükafatlandırılması kimi, tənbəllərin də, yumşaq ifadə ilə desək, tənbeh edilərək "cəzalandırılması" da elə cəmiyyətin haqlı sosial sifarişidir.

Sosial reklam özəl sektor, onun ayrı-ayrı sahələri üçün nəyə görə belə vacibdir? Qeyd edək ki, özəl sektora aid olsa da, bir sıra sahələr vardır ki, onların fəaliyyət profilləri sırf sosial məzmunlu olduğundan bir çox hallarda onlara qarşı bu tələblər qoyulmur. Məsələn, bir özəl klinikanın, yaxud özəl bir universitetin fəaliyyətinin nəticələrindən onların sahibindən çox cəmiyyətin fayda götürməsinin şərhə ehtiyacı yoxdur. Ancaq kommersiya, istehsal və digər xidmət sahələrinə gəldikdə burada potensial fərq açıqca görünməkdədir. Bunu xüsusən əhalinin müəyyən istehlakçı qruplarının maraqlarını ödəyən özəl sektora aid alkoqollu içkilər, tütün məmulatları istehsalı sahələri, əyləncə sektoru, modalı mallar istehsalı və satışı, lüks əşya, avtomobil istehsalı və satışı, bank, sığorta, telekommunikasiya, taksi nəqliyyatı kimi sahələrdə müşahidə etmək mümkündür. Belə biznes sahələrində təşkil olunan (əgər təşkil olunursa) kommersiya məzmunlu reklamdan fərqli olaraq, sosial reklam özəl sektorla cəmiyyətin bütün digər üzvlərinin sıx əməkdaşlığını təmin edən, hər hansısa bir sahədə fəaliyyət göstərən və qarşılıqlı rəqabətdə olan firma və müəssisələrin bir-birinə inam və etibarını dərinləşdirən, dolayısı ilə də onların hamısının nüfuzunu artıran mühüm amillərdən biridir. Söhbət korporativlikdən gedirsə, korporativ mədəniyyət və məsuliyyətin ailəlikcə dərk olunması, son nəticədə, təkcə bir firmanın deyil, regionun brend dəyərinin də formalaşmasına gətirib çıxarır ki, bu da müasir dövrdə bir çoxları üçün çox vacib bir məsələdir. Başqa sözlə, bu gün istənilən bir malın üzərində "Yaponiyada istehsal olunmuşdur" ifadəsini gördükdə ikinci bir sorğu-suala heç kimin ehtiyacının olmaması da bu ölkənin istehsalçılarının təkcə ölkə miqyasında deyil, dünya qarşısında daşıdığı sosial məsuliyyətin bəhrəsi deyilmi? Şirkətlərin uğurunun birgünlük deyil, uzunmüddətli və dayanıqlı olması üçün onların cəmiyyətlə apardığı korporativ əməkdaşlıq çox vacibdir ki, onun da yollarından biri sosial reklama geniş yer ayırmaqdır.

Bəs günün tələbi, inkişaf edən cəmiyyətin bir sosial sifarişi kimi bu sahədə bizdə vəziyyət necədir? Bunun üçün kiçik bir araşdırma apardıq. Məqsəd muxtar respublikamızda fəaliyyət göstərən özəl sektor, bələdiyyə və digər qurumlarda bu istiqamətdə aparılan işlərin məzmunu və miqyasını öyrənmək, onlarla bu mövzuda söhbətlər aparmaq idi. Hər halda oxucu da dərhal təsdiq edə bilər ki, bu sorğuda məqsədli qrup kimi hansısa kiçik bir istehsal sahəsinə müraciət etməyimiz doğru olmazdı. Kifayət qədər işçi qüvvəsi olan, məhsulları bazarda özünə geniş istehlakçı seqmenti qazanmış çoxlu sayda istehsal və xidmət müəssisələrimiz vardır ki, onların görə biləcəkləri hər hansı sosial reklam xarakterli iş, son nəticədə, dövlətin sosial siyasəti ilə uğurla uzlaşan bir nəticə əldə etməyə imkan verərdi. Amma görünən odur ki, belə müəssisələrin menecerlərinin, onların yerləşdikləri ərazidə fəaliyyət göstərən bələdiyyələrin nümayəndələrinin əksər hallarda belə məsələlərdən heç xəbərləri yoxdur və ya çox az təsəvvürləri vardır. Halbuki 15-20 il əvvəlki dövrdən fərqli olaraq, cəmiyyətimizdə hazırda yetişmiş elə güclü potensial vardır ki, bunun köməyi ilə kiçik bir sosial reklam xarakterli kampaniya və ya tədbirə dərhal reaksiya verilməsi, bunun vasitəsilə kommersiya reklamından da dəfələrlə artıq səviyyədə səmərə əldə edilməsi mümkündür. Axı sosial reklam öz miqyasına görə daha çoxtirajlı olub, yaddaşlardan uzun müddət silinməyən bir gücə malikdir. Sosial reklamın bütün bu qədər hərtərəfli səmərəsinə rəğmən, müraciət etdiyimiz müəssisələr yalnız Yeni il ərəfəsində hərbi hissələrə sovqatlar aparılmasından başqa, heç nə qeyd edə bilmədilər. Halbuki muxtar respublikada dövlət müəssisələrinin, nazirlik, idarə və təşkilatların qatıldığı belə tədbirlərlə öz işini bitmiş hesab edən bu firma və müəssisələrin qarşılarında daha geniş vəzifələr vardır. Məsələn, artıq 5 ildir ki, fəaliyyət göstərən Naxçıvan Avtomobil Zavodu nə zaman sürücülərə tövsiyə xarakterli *"Gəlin sürət həddini aşmayaq!"* məzmunlu bir kampaniya keçirib bu istiqamətdə müştərisi olan nümunəvi taksi sürücülərini mükafatlandırdı ki, adamlar da ona laqeyd qaldılar? Yaxud sorğu yönəltdiyimiz digər firmalardan olan "Prestij Naxçıvan Pivəsi" və "Cahan Tobacco" Məhdud Məsuliyyətli cəmiyyətləri nə zaman *"Zərərli vərdişlərə yox deyək!"* və ya cəmiyyətdə hər kəsin, hər valideynin həssaslıqla yanaşdığı *"Uşaq və yeniyetmələri tütün və alkoqoldan uzaq tutaq!"* adlı bir kampaniya keçirdilər ki, kimsə də onu bəyənmədi? Naxçıvan Bələdiyyəsinin *"Təmiz şəhər aylığı"* və yaxud *"Hər damla suya qənaət edək"* və sair bu kimi belə çağırışlarına kim biganə qala bilərdi ki? Əgər olsaydı! İndi tikinti-quruculuq işləri çox genişlənib və on beş-iyirmi il əvvəl tikintisi illərlə davam edən bir obyekt beş-altı ayda tamamlanıb istifadəyə verilir. İşin təhlükəsizliyi və həm də şəhərin estetik görüntüsü naminə inşaat işləri aparılan meydançalar reklam tablolarla bəzədilmiş hasara alınır. Amma nədənsə bu inşaat meydançalarında əhaliyə yönəlmiş tikintinin məzmunu, başlanma və bitirilmə tarixi haqda məlumat lövhəsinə rast gəlinmir, müvəqqəti narahatçılığa, səs-küyə, toz-torpağa görə üzrxahlıq edilmir. Halbuki belə kiçicik bir diqqət ətrafda yaşayan insanların nəzərində böyük bir sosial reklam ola bilərdi. Kommersiya banklarına gəldikdə… Onların da bilavasitə və dolayısı ilə müştəriləri olduğu müxtəlif sosial qruplar (məsələn, tələbələr, evdar qadınlar, orta məktəb müəllimləri və ya ucqar, yaxud sərhəd kəndlərin sakinləri və sair) vardır ki, bunlara yönəlmiş məqsədli kampaniyalarla yaddaqalan işlər görə bilərlər. Və ən nəhayət, son illərdə muxtar respublikamızın ictimai və sosial həyatında baş vermiş əlamətdar hadisələr müxtəlif şirkətlər tərəfindən hansı yaddaqalan tədbirlərlə qeyd olunub? Bu il 90 illik yubileyi təntənə ilə qeyd olunan Naxçıvan Muxtar Respublikasında hansı şirkətimiz yaddaqalan bir tədbir keçirib? Məsələn, hər hansısa bir məhsul qablaşdırıldığı zaman onun dizaynında "Naxçıvan Muxtar Respublikası – 90" yazmaq o qədər də çətin məsələ deyil və bu, ən sadə sosial reklamdır.

***Hardan çıxdı bu mövzular deyə, bəzən özüm-özümə irad tuturam. Yəni oxucularımızdan biri məndən soruşsa ki, bəs bizim şirkətlər hələ özlərinin kommersiya reklamını təşkil edə bilmirlər, hardan sosial reklam haqqında düşünsünlər? Mən də onları qınamıram. İki yüz səhifəlik dissertasiyasından gəldiyi "elmi nəticəni" 2 səhifəlik məqalə ilə qəzetdə ictimaiyyətlə bölüşə bilməyənləri görəndə bunlara da deməyə sözümüz qalmır. Amma zamanın və inkişafın deməyə çox sözü var.***

✍ **Əli CABBAROV**

***Topaz Premyer-Liqasında mübarizə aparacaq "Araz-Naxçıvan" futbol komandası yeni mövsümün hazırlıqlarını Türkiyənin Ərzurum şəhərində tamamlayaraq geri qayıdıb. Birhəftəlik təlim-məşq prosesində qırmızı-ağlar gündə iki dəfə məşq etməklə yanaşı, həm də yoldaşlıq görüşlərində qüvvələrini sınayıblar. Çempionatın ilk turunda "Neftçi" futbol komandasını qəbul edəcək muxtar respublika təmsilçisi daha çox əsas heyəti müəyyənləşdirmək üçün yoxlama oyunlarında müxtəlif heyətlərlə meydana çıxdı.***

# "Araz-Naxçıvan" Premyer-Liqaya hazırdır



### *Yoldaşlıq oyunlarında fərqli heyətlər*

Təlim-məşq prosesində "Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Əsgər Abdullayevin əsas məqsədi heyəti komplektləşdirmək, futbolçuların fiziki dözümlülüyünü artırmaq və oyun taktikasını müəyyənləşdirmək idi. Odur ki, Ərzurumda ilk gündən etibarən futbolçularla kollektiv şəkildə çalışmaqla yanaşı, fərdi halda da onlarla yaxından maraqlanırdı.

Məqsədin əsas heyəti müəyyənləşdirmək olduğunu nəzərə alsaq, "Araz-Naxçıvan"ın keçirdiyi ilk iki yoxlama görüşünü qənaətbəxş hesab etmək olar. Türkiyə futbolunda öz dəst-xətti ilə seçilən "Samsunspor" və "Tarsus İdman Yurdu" ilə qarşılaşmalarda Əsgər Abdullayev matçların ilk yarısında meydana əsas heyəti buraxmaqla rəqibdən üstün olduğunu göstərdi. Görüşlərin ikinci hissələrində isə, əsasən, gənc və yeni futbolçulara üstünlük verən Ə.Abdullayevin taktiki sxemləri dəyişdirdiyi diqqətdən yayınmırdı.

Sonuncu – üçüncü yoxlama görüşündə isə "Araz-Naxçıvan"ın rəqibi Türkiyənin 20 yaşlılardan ibarət "Anadolu karması" futbol komandası oldu. İki görüşün nəticəsindən asılı olmayaraq, baş məşqçi heyəti müəyyənləşdirərək ilk hissədə gənc oyunçuları meydana buraxdı və əsas heyəti ehtiyatda saxladı. Görüşə rəqib üstün başlasa da, hesabı açan tərəf muxtar respublika təmsilçisi oldu. Sağ cinahdan başlayan hücumu Tərlan Xəlilov məntiqi sonluqla yekunlaşdırdı – 1:0. Bundan sonra komandamız bir neçə epizodda hesabı artırmağa yaxın olsa da, rəqib qapıçı buna imkan yaratmadı.

İkinci hissədə Əsgər Abdullayev heyəti tam olaraq dəyişdirdi və əsas futbolçuları meydana buraxdı. Həmçinin oyun taktikasında da dəyişikliyə üstünlük verən baş məşqçi daha çox hücum futbolu oynatdı. Bunun nəticəsi kimi rəqibi əks-hücumda yaxalayan qırmızı-ağlar hesab arasındakı fərqi ikiyə yüksəltdilər. Lakin muxtar respublika təmsilçisi qarşısında yenilmək istəməyən "Anadolu karması" cərimə zərbəsindən sonra komandamızı mərkəzə dəvət etdi – 2:1. Qoldan ruhlanan rəqib ardıcıl olaraq qapımız qarşısında təhlükəli vəziyyətlər yaratsa da, dəri əlcək sahibi Elçin Sadıqov topun qapı xəttindən keçməsinə imkan vermədi. Əvəzində qırmızı-ağlar türkiyəli həmkarlarını yenidən mərkəzə dəvət etdilər. Sürətli hücum təşkil edən "Araz-Naxçıvan" David Canıyevlə yenidən tablodakı hesabı dəyişdi – 3:1. Bu, matçda vurulan sonuncu qol olmadı. Belə ki, hücumçumuz cari mövsümün əvvəlində ilk üçlüsünə imza atmaqla komandamızın qələbəsində müstəsna rol oynadı – 4:1. Rəqibin səylərinə baxmayaraq, oyunda başqa qol olmadı və "Araz-Naxçıvan" futbol komandası Ərzurumdan qələbə ilə ayrıldı.

✍ **Ceyhun MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsi ilə əlaqədar işəgötürənin vəzifəsi nədən ibarətdir?***

***Cavab:*** İşəgötürən sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına, həmçinin təhlükəli və zərərli istehsalat amillərinə nəzarəti təşkil etməli, bu sahədə baş vermiş dəyişikliklər barədə işçilərə müntəzəm olaraq və vaxtında məlumat verməli, işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin verilməsini təmin etməlidir.

***Sual: Sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməməsinə görə işəgötürənin məsuliyyəti hansılardır?***

***Cavab:*** İşçilərə iş yerlərində sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraiti təmin edilmədikdə və kollektiv müqavilələrdə nəzərdə tutulan tədbirlər yerinə yetirilmədikdə işəgötürən qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada inzibati və cinayət məsuliyyətinə cəlb edilir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti***

# Elan

Avqust ayının 1-dən etibarən Naxçıvan Beynəlxalq Hava Limanında Azərbaycan Hava Yolları pilot kurslarına sənədlərin qəbuluna başlanılır.

Kurslara 23-25 yaş arası, ali təhsilli, ingilis dilini minimal səviyyədə bilən gənc oğlanlar buraxılırlar. Sənədlərin qəbulu Naxçıvan Beynəlxalq Hava Limanının Ümumi bölməsində aparılacaq.

***İtmişdir***

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 44, mənzil 38-də yaşayan İsmixanova Zəkiyyə Bayram qızının adına olan 24.05.2006-cı ildə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 093102 reyestr nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aybəniz Babayeva və şöbənin kollektivi iş yoldaşları Vidadi və Məhərrəm Allahverdiyevlərə, əzizləri **ARZUNUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin kollektivi bölmənin rəhbəri Sabir Məmmədova, atası **HAŞIM MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 657